# *Mehrəli QULU-70*



Hörmətli Mehrəli Qulu (Mehrəli Əlimərdan oğlu Quliyev) Sizi anadan olmağınızın 70 illiyi münasibəti ilə təbrik edirik. Siz Xaçmaz rayonunun Bostançı kəndində ziyalı ailəsində dünyaya gəlmisiniz. 1981-ci ildə indiki ADPU-nu bitirmisiniz. 1978-ci ildən Bostançı kənd tam orta məktəbində pedaqoji fəaliyyətə başlamısınız.

Müəllimliklə yanaşı bədii yaradıcılıqla da məşğul olmağa başlamısınız. İlk yaradıcılıq nümunələriniz o illərdə müxtəlif dövrü mətbuat orqanlarında çap olunub.

Siz "Qəmdən uza qaçıram" (2004), "Narahat qəlbin səsi" (2004), "Ürəkdən gülə bilmirəm" (2006), "Molla Nəsrəddin - 100" (Müasir lətifələr-2007), "Əyilməzdir vüqarım" (Təmsillər-2010), "Səni Allah güldürsün" (yumoristik novellalar - 2012), "Adının mənası nədir?" (2009), "Məktəbə get, can bala" (2011), "Ömrümüzün xoş anları" (2014), "Xalqımızın zəfər yolu" (2017) və "Bir əsgərin gündəliyindən..." (2018) adlı kitabların müəllifisiniz. Müxtəlif almanaxlarda, toplularda yaradıcılıq nümunələriniz işıq üzü görüb.

Siz ixtisasca pedaqoq olduğunuz üçün yaradıcılığınızda didaktik mövzular əsas yer pedaqoq olduğunuz üçün yaradıcılığınızda didaktik mövzular əsas yer tutur. "Məktəbə get, can bala" kitabınız bu baxımdan önəmlidir. Siz elmi-pedaqoji axtarışlarla da məşğul olursunuz. Bu fəaliyyətinizin yekunu kimi "Adının mənası nədir" kitabınız oxucular tərəfindən maraqla qarşılanıb.

Hazırda uşaqlar üçün yazdığınız "Adım nədir, anacan?" adlı şeir və hekayələr kitabı çapa hazırlanır. Siz AYB üzvlüyü ilə yanaşı həm də AJB-nin üzvüsünüz.

Prezident təqaüdçüsü olmusunuz, Xaçmazdakı "Ulduzlar", Qubada və Dərbənddəki "Gülüstan" elmi-bədii məclislərinin üzvüsünüz.

2012-ci ildə "Qızıl qələm" media mükafatına və "Xalqın nüfuzlu ziyalısı" adına layiq görülmüsünüz.

Sizə uzun ömür, yeni yaradıclıq uğurları arzulayırıq!

**Azərbaycan Yazıçılar Birliyi**

**Ədəbiyyat qəzeti. - 2024. - 11 iyun, № 17. - S. 32.**